

**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı Gəncə şəhəri**

# “Mavi Ay” restoranında qətl

**I yazı**

**(Povest)**

**Az deyib təmiz deyib:**

*“Mən ömrüm boyu yüzdən artıq adam öldürmüşəm. Lakin bunu vəhşiliyim, yaxud qəddarlığım səbəbindən deyil, iş naminə etmişəm”.*

**(Salvadore Luçano, Amerika mafiyasının “Xaç atası”)**

***Qaraxanın cangüdəni Rasim Muradla Məcidi qarşılayıb evə apardı. Divarları müxtəlif, bahalı tablo və rəssam işləri olan portretlərlə bəzədilmiş, çox da geniş olmayan otaqda Qaraxanla balta Cəbi üzüzə oturmuşdular. Əslində bura üç-dörd gün bundan əvvələ kimi şef Qurbanın kabineti idi. Rəqibləri tərəfdən gəzdiyi maşında atəşə tutulduqdan sonra onun vəzifəsini böyük oğlu Qaraxan yerinə yetirirdi...***

***...Bura şəhərin kənarında çox da dəbdəbəli olmayan, nisbətən balaca bir girişli xəstəxana idi. İki qatdan ibarət olan binada əsas etibarı ilə güllə yarası almış xəstələr müalicə olunurdular. İkinci mərtəbənin pəncərəsi önündə səliqə ilə geyinmiş, yaraşıqlı, cavan bir oğlan dayanmışdı. Onun adı Murad, içəridə üç güllə yarası almış və müalicə olunan məşhur narkobaron Qurbanın kiçik oğlu idi. Murad pəncərədən boylandı – küçədə heç kəs gözə dəymirdi, maşın da yox idi. Kim gələydi, içəri bu yeganə qapıdan keçməli olacaqdı. Murad başa düşdü ki, vaxtı azdır. O, küçəyə çıxıb küçə fənərinin altında dayandı və siqaret yandırdı. Xəstəxana ilə üzbəüz dar küçədən gənc bir oğlan peyda oldu və xəstəxana istiqamətinə addımladı. Qoltuğunda paket vardı. O, yaxınlaşdıqda sifəti Murada tanış gəldi. O, yaxınlaşdıqca sifəti Murada tanış gəldi. Oğlan Muradın bərabərində dayandı və bir az hündürdən dedi:***

***- Cənab Murad, tanımadın məni? Mən Rzayam. Çörəkçi Şahsuvarın kürəkəni. Atanız Qurban dayı mənə burada qalmağa kömək göstərməklə həyatımı xilas edib. Allah onu qorusun. Murad Rzanı tanıyıb əl verdi.***

- Tez olun, buradan gedin, - dedi. Burada qalmaq təhlükəlidir. Bir azdan həngamə qopacaq.

Rzanın sifətində qorxu nişanələrini oxuyunca da dedi:

- Qardaş, mən ömrüm boyu o kişiyə borcluyam. Buna görə də burada qalıb ona kömək etmək istəyirəm.

Bu zaman qarşıdakı küçədən uzun bir maşın peyda oldu, yaxınlaşdı, elə bil dayanmaq istəyirdi, lakin birdən sürətini artırıb uzaqlaşdı.

Murad və Rza təxminən on dəqiqə beləcə hərəkətsiz dayanıb siqaret çəkdilər. Qəfildən gecə sükutunu polis maşınının zil sirenası pozdu. On birinci küçənin tinindən böyük sürətlə peyda olan polis maşını xəstəxananın düz qarşısında dayandı. Onun arxasınca daha iki küçəyə və səkiyə polis nəfərləri və mülki geyimli, əli silahlı adamlar tökülüşdülər.

Polisləri Qaraxanın göndərdiyini zənn edən Murad gələnlərə tərəf addımladı. İki zırpı polis nəfəri onun qolundan tutdular, üçüncüsü cəld oğlanın üst-başını axtardı. Hündürboy, gövdəli polis polkovniki pillələri tələsmədən yuxarıya doğru qalxdı, polis nəfərləri kənara sıxlaşıb ona yol verdilər. Polkovnik Murada yaxınlaşıb kobudcasına:

- Mən elə bildim ki, bu mafioz quldurlarının hamısının damlanmışıq, - dedi.

- Kimsən? Burada nə sülənirsən?

Muradın bərabərində dayanmış mülki geyimdə olan leytenant xallı Murtuz dedi:

- Bu onlardan deyil, cənab polkovnik. Təmiz oğlandır.

Murad isə heç nə demədi. O, soyuqqanlılıqla polkovnikin sifətini öyrənir, onun zalım və boz gözlərində oynaşan qığılcımları dərindən oxuyub öyrənmək, sanki nəyisə anlamaq istəyirdi. Bayaqkı leytenant izah elədi:

- Bu Murad Vüqarlıdır. İçəridə xəstə yatan dəstəbaşı Qurbanın kiçik oğludur.

Murad sakit səslə soruşdu:

- Mühafizəçilər haradadır? Kim



onları götürüb?

Polkovnik barıt çəlləyi kimi partladı:

***- Qotur oğlu qotur! Sən kimsən ki, məndən izahat tələb edirsən? Hə, bu rayonun rəisi kimi mən götürmüşəm onları! Sənin o narkobaron və quldur dədəni qorumaq borcum deyil, onu lap gəbərtsələr də vecimə almaram, yerimdən tərpənəsi deyiləm. İndi isə sürüş buradan yaramaz küçük!***

Polkovnikin sözləri Murada zərrəcə təsir etmirdi. Gözlərini əvvəlki kimi polkovnikin sifətinə zilləyərək ildırım sürəti ilə düşünürdü: «ola bilsin ki, birinci maşındakı adam bizimlə narkobiznes sahəsində rəqabət aparan, adamlarına göstəriş verib atamı ölümcül hala saldıran düşmənimiz Həmid imiş və o məni gördüyündən maşını saxlamayıb ötüb keçib və polkovnik Ziya Maqsudova zəng vuraraq təxminən bunu deyib: “Sənə bir ətək pul vermişəm ki, Vüqarlıların mühafizəçilərini xəstəxanadan rədd edəsən ki, əl-ayağa dolaşmasınlar. Bəs nə üçün onlar hələ də orada sülənirlər? Doğrudanmı qardaşım Qaraxan haqlıdır və mühafizənin xəstəxanadan götürülməsi düşünülmüş planın, atama qarşı yeni sui-qəsdin tərkib hissəsidir?

Çox güman ki, qardaşım haqlıdır”.

Murad hislərini büruzə vermədən sakitcə dedi:

- Atamın palatasına keşikçi qoyulmayanacan buradan getməyəcəyəm.

Polkovnik onun yanında dayanmış bayaqkı leytenanta müraciətlə:

- Murtuz, həbs elə onu! – dedi.

Leytenant yerindən tərpənmədən:

***- Onun günahı yoxdur, - dedi müşkül olmayıb. Qəzetlər hay-küy qaldırar. Hirsindən tunc rəngi almış polkovnik Murtuzun üstünə yeridi:***

***- Dedi ki, apar küçüyü buradan!***

***Muradın beyni saat kimi dəqiq işləyirdi, qəzəb beynini, düşüncəsini dumanlandıra bilməmişdi. O, aydın və uca səslə dedi:***

***- Polkovnik! Atamın güdaza vermək üçün Həmiddən nə qədər almısan?***

Muradın bu sözləri deməsi ilə polkovnikin iri, çağa başı boyda yumruğunun dəhşətli zərblə onun çənəsinə enməsi bir oldu. Beynində sanki qumbara partladı, ağzı qan və sınmış dişlərlə doldu, qılçaları qatlandı. Polis nəfərləri onu tutub saxlamasaydılar döşəməyə yıxılacaqdı.

Mülki geyimli leytenant özünü Muradın üstünə ataraq onu ikinci zərbədən qorudu:

- Pərvərdigara, siz onu şikəst etdiniz ki! - qışqırdı.

Polkovnik cır səsiylə hündürdən elan etdi:

- Eşidin və agah olun ki, mən ona heç barmağımla da toxunmamışam. O özü üstümə şığıdı, ayağı ilişib yıxıldı. Aydındır? Həbs edilən zaman polisə müqavimət göstərdig

Murad sanki qırmızı duman arxasından baxaraq daha bir neçə maşının gəlib xəstəxana önündə dayandığını gördü. Maşınlardan adamlar tökülüşdülər. O, atasının rus vəkilini dərhal tanıdı. Vəkil polkovnikə yaxın gəlib dedi:

- Vüqarlılar ailəsi şəxsi axtarış idarəsinə müraciət edərək cənab Qurbanın mühafizəsi haqqında müqavilə bağlayıb. Müqavilənin 3-cü bəndində yazılıb ki, mühafizəçilərin silah gəzdirməyə tam hüquqları vardır. Əgər siz çaşıb onları həbs etmək istəsəniz, təbiidir ki, sabah məhkəmə qarşısında cavab verməli olacaqsınız. Sonra murada diqqətlə nəzər salıb soruşdu:

- Sizi kim döyüb? Sizə bədən xəsarəti yetirmiş şəxsə qarşı iddia qaldırmaq niyyətiniz varmı?

Murad çənəsini güclə tərpədərək:

- Məni vurmayıblar, özüm yıxılmışam, - dedi.

O, polkovnikin təntənə dolu baxışlarını sezib, cavab olaraq istehzayla gülümsədi. Murad özünü beyninə hakim kəsilən və aydın, buz mətanətini iliyəcən işləmiş quduz, dözülməz bir nifrəti nəyin bahasına olursa olsun yad baxışlardan gizlətməyə çalışırdı. O, istəmirdi ki, kimsə onun bu anda hansı hissləri keçirtdiyini bilsin. Atası bunu istəməzdi. O, yavaş-yavaş ruhən atasına çevrildiyini hiss edir və bundan qəribə bir həzz alırdı.

Sonra Murad başa düşdü ki, onu başqa xəstəxanaya aparırlar və huşunu itirdi.

Murad səhər tezdən narkozdan ayılanda hiss etdi ki, çənəsinə şinsarğı qoyublar və sol tərəfə dörd dişi çatışmır. Yatağın küncündə qardaşının yaxın dostu Məcid oturmuşdu.

- Dünən axşam nə olmuşdu? – deyə Məciddən xəbər aldı.

Məcid özünəməxsus sakit səslə cavab verdi:

- Qardaşın Qaraxanın polisdə öz adamı var. Səni müdafiə edən leytenant Murtuzu deyirəm. O, bəzi şeyləri bizə izah elədi. Səni vuran polkovnik Ziya Maqsudov bu vəzifəyə gələn gündən ucdantutma hamıdan rüşvət alır. Biz özümüz də işimizin xətri üçün ona az pul verməmişik. Lakin o hədsiz acgöz və vicdansız, çörəyi dizinin üstə olan adamdır. Görünür, klan Həmid ona güclü pul verdiyindən xəstəxanada qəbul saatı qurtaran kimi bizim adamları hamısını həbs edib, polis işçilərini isə başqa yerə göndərib. Ancaq şad xəbər var. Biz hesabı bərabərləşdirdik. Qurban əmiyə sui-qəsd hazırlayan Çopur Saleh, Həmidin sağ əli Bayramla qoşa bu gün səhər saat 4-də gecə barında öldürüldü!

Murad bu xəbəri eşitcək yatağında dikəldi:

- Bu necə ola bilər? Mən belə güman edirəm ki, biz hələlik dinc oturmalıyıq.

Məcid çiyinlərini çəkdi:

- Xəstəxanada baş verən hadisədən sonra Qaraxanı saxlamaq olmur. Onun göstərişi ilə Çeçenistan, Dağıstan və başqa yerlərdən buraya turist adı altında yüzlərlə yaraqlı gətirilib. Tərkibində qadınlarda az deyil Hamısı da bizim balta Cəbinin adamlarıdır. Böyük qarğın ola bilər. Yaponiya torpağında olan kimi Qaraxan mənə qulaq asmaq istəmir. Bəlkə sən onu dilə tutasan?

- Çalışaram, görək Murad dərindən nəfəs aldı.

***- Həmid nəhayət ki, səsini çıxardı. Bizimlə danışığa girmək istəmir. Yeri gəlmişkən, Əhməd Əylisli barədəki bəzi qorxularımız düz çıxdı. Sui-qəsd ərəfəsində, gecə onu gəbərdiblər. Mafioz Ənvər Aranlının klubunda. Nə isə, gedək Qaraxanın hüzuruna. Bəlkə bir tapşırığı oldu.***

***Yarım dairəvi şəkildə “Amara” adlanan kiçik meydançaya çıxan bütün evlər dar keçiddə köndələn dayanmış uzun limuzinlə qorunurdu. Maşının bütün pəncərələri yanyadək açıq idi. İki qaşqabaqlı kişi limuzinin kapotuna söykənib astadan söhbət edirdilər.***

Qaraxanın cangüdəni Rasim Muradla Məcidi qarşılayıb evə apardı. Divarları müxtəlif, bahalı tablo və rəssam işləri olan portretlərlə bəzədilmiş, çox da geniş olmayan otaqda Qaraxanla balta Cəbi üz-üzə oturmuşdular. Əslində bura üç-dörd gün bundan əvvələ kimi şef Qurbanın kabineti idi. Rəqibləri tərəfdən gəzdiyi maşında atəşə tutulduqdan sonra onun vəzifəsini böyük oğlu Qaraxan yerinə yetirirdi. Qurban bütün səlahiyyətləri icra etməyi ona tapşırmışdı. Qaraxan şən və qayğısız görünürdü. Uşaqlıqdan qardaşının xasiyyətinə yaxşı bələd olan Murad bu şən ovqatın nə demək olduğunu dərhal başa düşdü. Qaraxan atasına güllə atanları tezliklə aradan götürmək barədə qərar qəbul etmişdi və dünyada heç kəs onu bu qərardan döndərə bilməzdi. O, ayağa qalxıb qardaşı və Məcidlə səmimi görüşdü, oturmağa yer göstərdi. Gələnlər rahatlıqdan sonra üzünü Məcidə tutaraq yavaş səslə:

- İndicə vasitəçi zəng vurmuşdu. Bursalı heroin daşıyan türk Qulu Öztürk bizimlə görüşməyə can atır, - dedi.

Məcid ehtiyatla soruşdu:

- Ona nə cavab verdin? Nəticəsi nə oldu?

- Dedim ki, buyursun! Nə vaxt istəsə görüşə bilərik. Əslinə qalsa mən tələsmirəm, qoy vaxtı özü desin, mənə fərqi yoxdur, burnunu çıxaran kimi vurub gəbərdəcəm...

- Hə, hə... tamam yadından çıxmışdı... Həmid istəyir ki, biz Muradı onun yanına göndərək. Məhz Muradı! Öz təkliflərini ona söyləyəcək. Vasitəçi Muradın təhlükəsizliyinə tam təminat verir. Sözün qısası, bizi lap axmaq yerinə qoyublar.

- Əylisli klanı barədə nə dedilər?

- Vasitəçi dedi ki, Əhmədin ailəsi Qulu Öztürkün planı ilə razıdır. Onlar Çopur Salehlə Bayramın adını çəkmək istəmirlər. Yəni onların adlarını hesabdan siliblər. Atama edilən sui-qəsdin əvəzi kimi. Necə deyərlər, biri bizdən, ikisi də onlardan, Qaraxan güldü.

***- Çox həyasız adamlardır. Kişini az qala öldürüblər, indi isə istəyirlər ki, dal pəncələri üstə qalxıb onların əlindən dən yeyək. Qaraxan yenə güldü.***

***Məcid ehtiyatla dedi:***

***- Onların təkliflərini dinləsək pis olmazdı.***

***- Heç bir danışıq filan olmayacaq. Ya o murdar Həmid mənə təhvil verilməlidir, ya da Vüqarlı ailəsi onlara qarşı müharibə elan edəcəkdir.***

***- Lakin digər klanlar müharibəyə razı olmayacaqlar, - deyə Məcid etiraz etdi.***

***- Qaraxanın polisdəki adamıyla söhbət etdim. Deyir ki, polkovnik Maqsudov heç şübhəsiz ki, türk Quludan əmək haqqı alır. Özü də şaha layiq əmək haqqı Polkovnik hətta mülki geyimdə ona cangüdənlik də eləyir. Bu sayaq cangüdəni olana isə qətiyyən zaval yoxdur. Özün bilirsən ki, polis polkovnikini öldürüb sudan quru çıxmaq qeyri mümkündür. Həmid isə polkovniksiz bircə addım da atmır.***

***Bunu nəzərə al...***

**(ardı var)**